# “Arzuların bir bilet qədər yaxın!” müsabiqəsinin şərtləri

1. “Azərlotereya” açıq səhmdar cəmiyyəti (bundan sonra-Təşkilatçı) haqqında məlumat:

- Olduğu yer: AZ1010, Bakı şəhəri, Neftçilər prospekti, 153
- VÖEN-i: 1300053151
- Rəsmi internet səhifəsi: www.azerlotereya.com
- Əlaqə telefonları: *2080 Çağrı Mərkəzi.

2. “Arzuların bir bilet qədər yaxın” müsabiqəsi – insanları arzularını paylaşmağa və bir bilet qədər yaxın olan xəyallarını bölüşməyə təşviq etmək, şirkətə qarşı loyallığın artırılması məqsədilə keçirilən tədbirdir.

3. Müsabiqədə iştirak üçün heç bir ödəniş edilmir.

4. 18 (on səkkiz) yaşına çatmış, İnstagram və TikTok sosial media platformalarında hər kəsə açıq hesabları olan Azərbaycan Respublikası vətəndaşları könüllü şəkildə müsabiqədə iştirak edə bilər.

5. Müsabiqədə iştirak etmək üçün, iştirakçı öz arzusunu yazmalı, arzusunun təxmini təsvirini verməli və postda/videoda #birbiletqederyaxin həştəqi qeyd edilməlidir. Həştəqsiz paylaşımlar nəzərə alınmayacaqdır.

6. Hər bir iştirakçı yalnız bir paylaşımla müsabiqədə iştirak edə bilər.

7. Müsabiqədə iştirak etmək üçün İnstagram və TikTok sosial media platformalarında açılmış hər kəsə açıq olan hesab ən azı müsabiqənin başlamasından üç ay qabaq açılmış olmalıdır. Müsabiqədə iştirak məqsədilə açılmış, mütəmadı istifadə edilməyən, iştirakçının özünə aid olmayan hesabların müsabiqədə iştirakı nəzərə alınmayacaqdır.

8. Paylaşılan arzu real, etika və əxlaq qaydalarına uyğun, konkret və qeyri-pul məzmunlu, bu şərtlərdə qeyd edilmiş limit çərçivəsində gerçəkləşdirilməsi mümkün olmalı, Azərbaycan Respublikası qanunvericiliyini pozmamalıdır. Aşağıdakı məzmunlu paylaşımlar müsabiqəyə qəbul edilmir:

- Pul məbləğlərində ifadə edilən paylaşımlar;

- Siyasi, dini və ya ideoloji xarakterli paylaşımlar;
- Qanunvericiliyə zidd, o cümlədən qanun pozuntusu ehtiva edən, zorakılıq və ya diskriminasiya təşviq edən paylaşımlar;
- Şəxsi həyatla bağlı olan və ya kommersiya və reklam xarakterli paylaşımlar;
- Üçüncü şəxslərin razılığı alınmadan onlara dair və onlarla bağlı paylaşımlar;
- Üçüncü şəxslərin fərdi məlumatlarının və şəxsi həyatına dair məlumatların icazəsiz paylaşan paylaşımlar;
- Üçüncü şəxslərin mülkiyyətinə və ya hüquqlarına və qanuni mənafelərinə zərər vura bilən paylaşımları;
- Plastik cərrahiyyə və həyat üçün təhlükəli olan digər tibbi prosedurlar ilə bağlı paylaşımlar;
- Həyat üçün təhlükə riski daşıyan paylaşımlar (Məsələn, hündürlüyü 5000 metrdən çox olan zirvələrə dırmanma və ya 1000 metrdən hündür məsafədən paraşütlə tullanma);
- Ömürlük şərtsiz gəlir ödənilməsi ilə bağlı paylaşımlar;
- Təhlükəli ölkələrə (Somali, Sudan və sair) səfərlə bağlı paylaşımlar;
- Gerçəkləşdirilməsi qanunvericiliklə müəyyən olunmuş mürəkkəb prosedurlara uyğun aparılmalı olan paylaşımlar;
- Kobud, təhqiramiz və ya etik normalara zidd paylaşımlar.

9. Qalibin arzu paylaşımının gerçəkləşdirilmə xərcləri 50 min manatı aşmamalıdır. Bu məbləği aşan dəyərdə arzu paylaşımları müsabiqəyə qəbul edilməyəcəkdir.
10. Bütün uyğun arzu paylaşımları xüsusi platformada toplanacaq və hər kəs tərəfindən görünə biləcək.
11. Müsabiqəyə qoşulanların qaydalara uyğun şəkildə iştirakını təmin etmək üçün Təşkilatçının müraciətlərə müdaxilə etmə və iştirakı təsdiqləmə hüququ var.

12. Qalib elektron alqoritm vasitəsilə təsadüfi seçim üsulu ilə müəyyən ediləcək.
13. Qalib seçildikdən sonra iştirak etdiyi hesab ilə Təşkilatçının rəsmi səhifəsi adından əlaqə yaradılaraq xəbər veriləcəkdir.
14. Müsabiqədə iştirak etməklə, iştirakçılar öz paylaşımlarının Təşkilatçının kommunikasiya materiallarında istifadəsinə razılıq vermiş sayılırlar. Qalibin adı və paylaşımı Təşkilatçının rəsmi sosial media səhifələrində elan ediləcək.
15. Təşkilatçı müsabiqənin gedişatında və ya nəticəsində yaranan texniki və sosial media platformasının problemlərinə görə məsuliyyət daşımır.
16. Qalib seçildikdən sonra onunla əlaqə saxlanılacaq. 7 iş günü ərzində şəxsiyyət vəsiqəsini təqdim etməklə geri dönüş olmadıqda, yeni qalib seçilə bilər.
17. Təşkilatçı bu Şərtlərlə müəyyən edilmiş qaydalara zidd olan paylaşımları silə və ya müsabiqədən kənarlaşdıra bilər.
18. İştirakçılar paylaşımların müəllifliyinə və doğruluğuna görə məsuliyyət daşıyırlar.
19. “Arzuların bir bilet qədər yaxın” müsabiqəsinin qüvvədə olan müddəti: 27 noyabr 2025-ci il – 27 dekabr 2025-ci il. 27 dekabr 2025-ci il saat 23:59-dan sonra yerləşdirilmiş paylaşımlar müsabiqədə iştirak etməyəcəkdir.
20. Hər bir yenilik və əlavələr haqqında KİV-lə (www.azerlotereya.com) əhaliyə əvvəlcədən məlumat veriləcəkdir.
21. Qalib gəlmiş arzu qalibin müraciət tarixindən başlayaraq 150 (bir yüz əlli) təqvim günü ərzində reallaşdırılmalıdır.
22. Qalibin arzusunun gerçəkləşdirilməsinin pul məbləği ilə əvəz edilməsinə yol verilmir.
23. Arzunun gerçəkləşdirilməsi hüququ başqa şəxslərə ötürülə bilməz.
24. Arzunun gerçəkləşdirilməsi tərəflər arasında imzalanan sənədlə rəsmiləşdiriləcəkdir.
25. Arzunun gerçəkləşdirilməsi hər hansı mal və ya xidmətin qalibə verilməsini nəzərdə tutursa, mal və ya xidmət qalibə təqdim edildikdən sonra malın zədələnməsi və onların istismarı halları ilə bağlı hər hansı bir riskə görə,

zəmanət xidmətinə görə, habelə xidmətin verilməsi zamanı yaranan çətinliklərə (məsələn, viza verilməməsi, xarici ölkələrdə qüvvədə olan məhdudiyyətlər) və fors-major hallara görə Təşkilatçı məsuliyət daşımır.